# İcma: "ABŞ hökumətini azərbaycanlılara qarşı ayrı-seçkiliyə son qoymağa çağırırıq"

Biz ATƏT-in İnsan Ölçüsü Konfransında çıxış edən ABŞ Dövlət katibinin demokratiya, insan haqları və əmək məsələləri üzrə köməkçisi Dafna Randın "Dağlıq Qarabağ"da insan hüquqları və humanitar hüquqların pozulmasına istinad etməsini qınayırıq.

AZƏRTAC xəbər verir ki, bu barədə Qərbi Azərbaycan İcmasının bəyanatında bildirilib. Bəyanatda həmçinin deyilir: "Əvvəla, Azərbaycanda "Dağlıq Qarabağ" adlı heç bir region mövcud deyil. ABŞ rəsmisinin işğal və separatçılıqla assosiasiya olunan bu termini işlətməsi Azərbaycanın ərazi bütövlüyünə hörmətsizlikdir.

İkincisi, Azərbaycan ərazi bütövlüyünü və suverenliyini bərpa edərkən Qarabağ bölgəsində heç bir insan hüquqları və humanitar hüquq pozulması halı baş verməmişdir. Etnik ermənilərin Azərbaycan cəmiyyətinə inteqrasiyadan imtina etməsini hüquq pozuntusu kimi qələmə vermək tamamilə qəbuledilməzdir.

Nəhayət, ABŞ-nin Ermənistanın etnik təmizləmə və hərbi təcavüzü nəticəsində azərbaycanlıların hüquqlarının kütləvi şəkildə pozulmasına onilliklər ərzində göz yumması fonunda bu bəyanat azərbaycanlılara qarşı etnik və dini mənsubiyyətinə görə ayrı-seçkiliyin bariz sübutudur. Ermənistandan axırıncı deportasiya zamanı qovulmuş 300 000-dən çox azərbaycanlı hələ də öz evlərinə geri qayıda bilmir. İşğal altında olmuş Azərbaycan torpaqlarından qovulmuş 700 000-dən çox azərbaycanlı otuz il ərzində geri qayıda bilməmişdir. Həmin ərazilər işğaldan azad olunsa da, oraların Ermənistan tərəfindən viran qoyulması və orada milyonlarla mina basdırılması səbəbindən keçmiş məcburi köçkünlərin öz evlərinə qayıdışı çətinləşmişdir.

Biz ABŞ hökumətini azərbaycanlılara qarşı ayrı-seçkiliyə son qoymağa, bölgədə yenidən münaqişə alovlandırmaq cəhdlərindən əl çəkməyə və deportasiya olunmuş azərbaycanlıların Ermənistana qayıdışına dəstək olmağa çağırırıq".

Azərbaycan.- 2024.- 3 oktyabr (№ 216).- S.10.